2017-ci il ərzində Dövlət Mülki Aviasiya Administrasiyasının fəaliyyəti barədə

HESABAT

Dövlət Mülki Aviasiya Administrasiyasının (DMAA) Əsasnaməsi ilə təyin edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq 2017-ci ildə Administrasiyanın aparatı və şöbələri üzrə görülən işlər:

Beynəlxalq Aviasiya Təşkilatları və Xarici dövlətlərlə mülki aviasiya sahəsində bir sıra sazişlər imzalanıb və danışıqlar aparılıb;

DMAA-nın əməkdaşları Beynəlxalq mülki aviasiya təşkilatlarının bir sıra konfranslarında və müşavirələrində iştirak etmişlər;

Bununla yanaşı, DMAA beynəlxalq münasibətlər sahəsində əhəmiyyət kəsb edən digər fəaliyyət növlərini həyata keçirmişdir.

İl ərzində 130 müntəzəm, 26 əlavə, 6 yük və 23 çarter uçuşuna icazələr rəsmiləşdirilmişdir.

2017-ci ilin 24-25 oktyabr tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası ilə Avropa Komissiyası arasında "Avropa İttifaqı və onun üzv dövlətləri ilə Azərbaycan Respublikası arasında vahid aviasiya məkanına dair Saziş" layihəsi üzrə danışıqların üçüncü mərhələsi baş tutub. Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Xələf Xələfov başçılıq edib. Azərbaycan Respublikası dövlət qurumlarının təmsilçilərinin iştirakı ilə keçirilmiş danışıqlarda Saziş layihəsinin müzakirəsi davam etdirilib. Danışıqların nəticələri üzrə nümayəndə heyətlərinin rəhbərləri tərəfindən imzalanmış Protokolda sözügedən Sazişin bir sıra razılaşdırılmamış müddəaları öz əksini tapıb.

2017-ci ildə Aviasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində müəyyən işlər görülmüşdür.

Belə ki, aşağıda göstərilən bir sıra sənədlər işlənib hazırlanmış və müvafiq qaydada təsdiq edilmişdir:

1) DMAA-nın 28.02.2017-ci il tarixli 10 nömrəli əmri ilə "Aviasiya Təhlükəsizliyi üzrə Milli Koordinatorun təyin edilməsi Qaydası";

2) DMAA-nın 10.08.2017-ci il tarixli 39/1 nömrəli əmri ilə "Təhlükəli yüklərin daşınması ilə bağlı müraciətlərə baxılma və icazələrin verilməsi Qaydaları" və "Hava yolu ilə daşınması qadağan olunmuş təhlükəli yüklərin daşınmasına dair azadolunma icazəsinin verilməsi Qaydaları";

3) DMAA-nın 11.09.2017-ci il tarixli 46 nömrəli əmri ilə "Yük və poçt göndərişlərinin təhlükəsizliyinin təmini Qaydaları", "Qeydiyyatdan keçmiş agentlərin sertifikatlaşdırılması Qaydası", "Məlum yükgöndərənlərin sertifikatlaşdırılması Qaydası", "Qeydiyyatdan keçmiş agent (məlum yükgöndərən) statusuna malik olmaq istəyən təşkilatın fəaliyyətinin yoxlanılması Prosedurları", "Qeydiyyatdan keçmiş agentlərin (məlum yükgöndərənlərin) təhlükəsizlik tədbirlərinə dair Tələblər", "Qeydiyyatdan keçmiş agentin (məlum yükgöndərənlərin) aviasiya təhlükəsizliyi proqramının işlənilməsi üzrə Təlimat";

4) Heydər Əliyev Beynəlxalq Aeroportu, Gəncə, Lənkəran, Qəbələ, Naxçıvan Beynəlxalq Hava Limanlarının, Zabrat Hava Limanının aviasiya

təhlükəsizliyi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamələr hazırlanıb və təsdiq edilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunub;

5) Azərbaycan Respublikası Nazirlər Kabineti yanında aviasiya təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyasının Katibliyi haqqında Əsasnamə hazırlanıb və təsdiq edilməsi üçün Nazirlər Kabinetinə təqdim olunub;

6) Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası arasında qarşılıqlı əməkdaşlığa dair Fəaliyyət Planı razılaşdırılıb və təsdiq edilib;

7) Azərbaycan Respublikasında Mülki Aviasiyanın yanğın təhlükəsizliyi və qəza-xilasetmə xidmətləri və komandalarının şəxsi heyətinin peşə hazırlığı Proqramı;

8) Axtarış və qəza-xilasetmə üzrə müfəttişlərin yoxlama vərəqələri (SAR INSPECTION CHECKLIST).

Mülki aviasiya subyektlərində aviasiya təhlükəsizliyinin təmini üzrə 7 audit, 22 müfəttiş yoxlamaları keçirilmışdir.

Aviasiya təhlükəsizliyinin və Yanğından Mühafizə və Qəza-xilasetmə işlərinin təmini üzrə plandankənar 2 müfəttiş yoxlaması, 1 icmal keçirilmişdir.

Aviasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində təhlükəli yüklərin qəbulu, emalı və daşınması ilə məşğul olan mülki aviasiya subyektlərində 11 müfəttiş yoxlaması keçirilmışdir.

DMAA-nın mülki aviasiya subyektlərinin sertifikasiyası üzrə keçirilən 5 müfəttiş yoxlamasında iştirak edilmişdir.

2017-cı ilin sentyabr ayında ABŞ-ın Nəqliyyat Təhlükəsizliyi Agentliyi (TSA) tərəfindən “Azərbaycan Hava Yolları” QSC və “Silk Way West” Aviaşirkətində aviasiya təhlükəsizliyi üzrə keçirilmiş müfəttiş yoxlamalarında iştirak edilmişdir.

Təhlükəli yüklərin daşınması üzrə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 150, DMAA tərəfindən isə 75 icazənin verilməsi rəsmiləşdirilmişdir.

Uçuşların təhlükəsizliyinə nəzarət sahəsində Azərbaycan Respublikasında fəaliyyət göstərən aviaşirkətlərdə uçuşların təhlükəsizliyini təmin etmək məqsədi ilə təsdiqlənmiş illik audit planına uyğun olaraq uçuşqabağı və uçuş zamanı çoxsaylı yoxlamalar həyata keçirilib. Aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üzrə ciddi tədbirlər görülüb.

Azərbaycan Respublikasına uçuşlar həyata keçirən xarici aviaşirkətlərin təyyarələrində uçuşların təhlükəsizliyi ilə bağlı yoxlamalar keçirilərək aşkar olunmuş nöqsanlarla bağlı istismarçılara tövsiyələr verilib.

Azərbaycan Respublikasında fəaliyyət göstərən yerli istismarçıların (aviaşirkətlərin, aerodromların, xüsusi yerüstü xidmət obyeklərinin və digər subyektlərin) istismar sertifikatlarının müddətinin uzadılması və yeni sertifikatların verilməsi, o cümlədən yeni tip hava gəmilərinin istismara buraxılmasında və istismarda olan hava gəmilərinin uçuşa yararlığına nəzarət üzrə işlər görülüb.

Aviasiya personalının hazırlığına nəzarət, müvafiq şəhadətnamələrin verilməsi və etibarlılıq müddətinin uzadılması üzrə işlər davam etdirilir.

2015-ci ilin 24 avqust - 03 sentyabr tarixlərində Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) "Uçuşların təhlükəsizliyinin davamlı audit-monitorinqi üzrə universal Proqram"ı (USOAP CMA) əsasında DMAA-da audit keçirilmiş və son hesabat 2016-cı ilin yanvar ayında daxil olmuşdur. Audit üzrə ümumiyyətlə uçuşların təhlükəsizliyinə ciddi təhdid qeyd edilməsə də, hesabatlarda bir çox nöqsanlar və tövsiyələr öz əksini tapıb.

Bu irad və tövsiyələrin aradan qaldırılması, DMAA strukturunun təkmilləşdirilməsi, maddi təminatın yaxşılaşdırılması, nəzarətin gücləndirilməsi üzrə tədbirlər planı hazırlanıb. Hal hazırda plan ICAO-ya təqdim edilib və onun yerinə yetirilməsi təmin edilir:

- mülki aviasiya sahəsini əhatə edən "Azərbaycanın Aviasiya Qaydaları"nın bölmələri və Təlimatlar beynəlxalq standartlara uyğunlaşdıraraq yenidən təsdiq edilib;
- il ərzində bütün uçuş heyətlərindən və digər aviasiya personalından (ekipaj üzvlərindən) imtahan qəbul edilib və beynəlxalq nümunələrə uyğun yeni şəhadətnamələr verilib;
- "Embraer 170\190" və "Airbus 340" tipli hava gəmilərinin uçuş heyətlərinin trenajor hazırlığı ilə bağlı xarici dövlətlərdə yerləşən trenajor mərkəzlərində yoxlamalar aparılıb və DMAA tərəfindən müvafiq tanınma sertifikatları verilib;
- Uçuşların təhlükəsizliyinə nəzarət sahəsində çalışan əməkdaşlar 2017-ci il təlim planına uyğun olaraq hazırlıq kursalrında və digər sahələri əhatə edən seminarlarda qismən (maliyyə imkanları çərçivəsində) iştirak ediblər;
- DMAA-nın aerodromlar üzrə müfəttişlərinin və "Azərbaycan Hava Yolları" QSC-nin aerodrom xidmətləri üzrə mütəxəssislərinin nəzəri bilik səviyyəsinin artırılması üçün Türkiyə Mülki Aviasiya Administrasiyası ilə bu sahədə danışıqlar aparılmış və müvafiq kursların keçirilməsi barədə razılıq əldə olunmuşdur. Bununla belə, Türkiyə Mülki Aviasiya Administrasiyasının aerodromlar üzrə mütəxəssisləri tərəfindən cari ilin dekabr ayında sözügedən kurslar böyük auditoriyanın iştirakı ilə təşkil olunub;
- cari il ərzində baş vermiş aviasiya hadisələrinin və insidentlərin araşdırılmasını, o cümlədən uçuşların təhlükəsizliyinin artırılması sahəsində müvafiq tədbirlərin görülməsi təmin edilib;
- ICAO-nun Standartlarına uyğun olaraq normativ milli sənədlərin hazırlanması davam etdirilib;
- Uçuşların Təhlükəsizliyi üzrə Avropa Agentliyi (EASA) ilə birgə iş planına uyğun olaraq fəaliyyətin qiymətləndirilməsi ilə bağlı audit keçirilib, nəzarət səviyyəsinin artırılması üzrə əsas istiqamətlər təyin edilib;
- Milli Aviasiya Akademiyasının "Hissə-147" ("Part-147") sənədi üzrə sertifikatlaşdırılması işinə başlanıb;
- istismarçıların əməliyyat sənədlərinin reviziyalarına dair rəylər verilib.

Müəyyən edilmiş sertifikasiya tələblərinə davamlı uyğunluğun təmin edilməsi məqsədi ilə müfəttiş yoxlamaları keçirilmiş və müsbət nəticələrə əsasən 1 milli aviasiya şirkətinin ("Azərbaycan Hava Yolları") və Heydər Əliyev

Beynəlxalq Aeroportunun İstismarçı Sertifikatlarının qüvvədə olma müddətləri uzadılmışdır.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası ilə Dövlətlərarası Aviasiya Komitəsi arasında aviasiya hadisələrinin araşdırılması və qarşısının alınması sahəsində qarşılıqlı fəaliyyət haqqında Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə" 2017-ci il 3 may tarixli 2835 nömrəli Sərəncam imzalanıb. Bu Sərəncama əsasən, DMAA ilə DAK arasında sözügedən Saziş cari ilin 10 may tarixində bağlanıb.

Beynəlxalq təşkilatların tövsiyələrinə uyğun olaraq tərəfimizdən irəli sürülmüş təklif əsasında "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 516-VQD nömrəli Qanunu qəbul olunub.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 516-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 9 mart tarixli 1291 nömrəli Fərman imzalanıb. Fərmanın tələblərinə uyğun olaraq "Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın layihəsi tərəfimizdən hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 13 oktyabr tarixli 431 və 432 nömrəli Qərarları ilə, müvafiq olaraq, "Aviasiya təhlükəsizliyi sahəsində personalın hazırlığına dair Qaydalar" və "Baxış üzrə operatorların, aviasiya təhlükəsizliyi üzrə müfəttişlərin (auditorların) və instruktorların sertifikatlaşdırılması Qaydası" təsdiq edilib.

Tərəfimizdən təqdim edilmiş təklifə əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 498 nömrəli Qərarı ilə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarında dəyişiklik edilib.

Müəyyən edilmiş sertifikasiya tələblərinə davamlı uyğunluğun təmin edilməsi məqsədilə müfəttiş yoxlamaları keçirilmiş və müsbət nəticələrə əsasən 3 milli aviasiya şirkətinin (Milli Aviadaşıyıcı "Azərbaycan Hava Yolları" QSC, "Silk Way Aviaşirkəti" MMC və "Silk Vey Helicopter Services" MMC) İstismarçı Sertifikatlarının qüvvədəolma müddətləri uzadılmışdır.

Üç (3) mülki aerodromun (Heydər Əliyev Beynəlxalq Aeroportu, Yevlax aerodromu, Qəbələ aerodromu) Uyğunluq Sertifikatlarının qüvvədəolma müddətləri uzadılmışdır. Əlavə olaraq, mülki aviasiya sahəsində fəaliyyət göstərən digər subyektlərə və aeronaviqasiya sahəsində istifadə olunan avadanlıqlara 37 Uyğunluq Sertifikatı verilib.

On iki (12) hava gəmisinə Dövlət Qeydiyyatı haqqında sertifikat verilib, müxtəlif hava xətlərini istismar hüququ verən 152 sertifikat rəsmiləşdirilib. Yekun

olaraq, cari il ərzində ümumilikdə müxtəlif sahələr üzrə 207 icazəverici sənəd rəsmiləşdirilib.

Məlum olduğu kimi, 2015-ci ildə keçirilmiş auditin yekun hesabatında əks olunan nöqsanların aradan qaldırılması və “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 4-cü maddəsi ilə nəzərdə tutulmuş Dövlətin vəzifələrinin ICAO-nun tələblərinə uyğun icrasını təmin etmək məqsədi ilə DMAA Kollegiyasının 2016-cı il 6 sentyabr tarixli iclasının qərarını rəhbər tutaraq, DMAA-nın tabeliyində publik hüquqi şəxs “Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi”nin yaradılması ilə bağlı təkliflərimiz Azərbaycan Respublikasının Nazirlər Kabinetinə 2016-cı il 7 sentyabr tarixli 04/2055 nömrəli məktubla təqdim edilib.

Qeyd edilən təklifə əsasən, müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən ”Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində ”Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi” publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında” 2017-ci il 2 fevral tarixli 1223 nömrəli Fərman imzalanıb və ”Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində ”Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi” publik hüquqi şəxsin bəzi məsələləri haqqında” 2017-ci il 2 avqust tarixli 313 nömrəli Qərar qəbul olunub. Sözügedən Qərarla Dövlət Müfəttişliyinin Nizamnaməsinin təsdiq edildiyi nəzərə alınaraq, yaradılmış bu publik hüquqi şəxsin 2017-ci ilin avqust ayından etibarən formalaşmasına başlanılıb və bu istiqamətdə aidiyyəti tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Uçuşların təhlükəsizliyinin təmin edilməsi istiqamətində mülki aviasiya sahəsində fəaliyyət göstərən subyekt və şirkətlərə müvafiq göstərişlər verilib və bu məsələyə tərəfimizdən daima nəzarət edilir.